**UOT:** 1 (091)
**KBT:** 60.03
**DOI:** 10.33864/2617-751X.2024.v7.i1.77-90
**MJ №** 200

# Georq Vilhelm Fridrix Hegel fəlsəfəsində analitik və sintetikin fərqi

**Elnur Yusifzadə***

**Abstrakt.** Hegel fəlsəfəsində analitik ilə sintetik arasındakı fərqin qısa icmalını etmək, həmçinin bu filosofun Kant fəlsəfəsinin ardıcılı olub, olmamasını müəyyənləşdirmək məqalənin əsas məqsədini təşkil edir.

İlk olaraq “Giriş” bölməsində Kant fəlsəfəsində analitik ilə sintetik arasındakı fərq göstərilib, Kantın həm Hegelə, həm də sözügedən dövrə təsiri, bu məsələ ilə əlaqədar hər iki alimin qənaətləri təhlil edilib.

Məqalədə Hegel fəlsəfəsində konsept cütü, yəni analitik və sintetik konseptlərlə əlaqədar müəyyən qənaətlərə münasibət bildirilərək Hegel ilə Kant dünyagörüşünün əsas cəhətləri açıqlanıb.

Məqalə nəticəsində Hegelin əsas fəlsəfi baxışları müəyyən edilərək analitik və sintetik arasındakı fərqin dialektik mühakimə yolu ilə həll edilməsinin mümkünlüyü düşüncəsi irəli sürülüb.

**Açar sözlər:** Hegel, Kant, analitik, sintetik, subyekt, obyekt, predikat, dialektika

## 1.Giriş

Məqaləyə analitik və sintetik haqqında fəlsəfə tarixindən istinadlar verərək başlamaq yerinə birbaşa Kant fəlsəfində bu ayrımın necə göründüyünü qısa bir formada izah edərək başlayacayıq. Kant, analitik və sintetik arasındakı ayrıma mühakimə bölgüsü vasitəsilə çatır. İ.Kanta görə, subyekt-predikat əlaqəsi iki növ mühakimədə mümkündür. Ya “B” predikatı “A” konseptinin tərkibindədir yəni ona məxsusdur, ya da “B” predikatı “A” konseptində yoxdur, başqa sözlə ondan kənarda yerləşir.

* İstanbul Universiteti, Sosial Elmlər İnstitutu, Fəlsəfə Bölməsi, Ph.D (kvalifikasiya müddəti); İstanbul, Türkiyə Respublikası
E-mail: elnur.yusifzade@gmail.com
https://orcid.org/0000-0003-1187-3416

**Məqaləyə istinad:** Yusifzadə, E. [2024] Georq Vilhelm Fridrix Hegel fəlsəfəsində analitik və sintetikin fərqi. *“Metafizika” jurnalı, 7(1),* səh.77-90.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.77-90

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.11.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 11.12.2023*
*Çapa qəbul edilmişdir: 29.01.2024*

Birinciyə, yəni daxilə analitik, ikinciyə, yəni daxil edilməməyə isə sintetik deyilir. İ.Kanta görə, əgər subyekt-predikat əlaqəsi identiklik olaraq düşünülürsə o, analitikdir, identiklik kimi düşünülmürsə sintetikdir. Analitik mühakimələr biliklərimizi genişləndirmir, onlar sadəcə izahedici mühakimələrdir. Bu kontekstdə identiklik əlaqəsi iki şəkildə nəzərdən keçirilə bilər. Ya açıq və aydın, ya da örtülü şəkildə. Açıq və aydın hesab edilənlər tavtologiyalardır: A=A. Örtülü olaraq düşünülənlərsə məsələn: "cisimlər yer tutur" kimi mühakimələrdir. İndi buradakı predikat, subyektə heç nə əlavə etmir, onsuzda onda mövcud olanı təkrarlayır. Başqa sözlə, "yer tutmaq" predikatı artıq "cisim" konseptinin daxilindədir yəni 'cisim' konsepti, 'yer tutmaq' predikatını özündə ehtiva edir. Ona görə də mənim biliyimi artırmır, genişləndirmir o, yalnız onda mövcud olanı qavrayış vasitəsilə ayırır. Kanta görə analitik mühakimələr, təcrübəyə əsaslanan mühakimələr deyil və buna görə də onlar a priori biliklərdir.

Sintetik mühakimələr, biliklərimi genişləndirən mühakimələrdir. "Cisimlər ağırdır" deyəndə bu, sintetik bir mühakimədir çünki biliklərimi çoxaldır və eyni zamanda çəki konseptinə sadəcə cisim konseptini qavramaqla çata bilmirəm buna görə mühakimənin doğruluğu, mühakimənin xaricindən gətirilir. Kanta görə, elmi mühakimələr də fəlsəfi mühakimələr də sintetik olmalıdır. Bununla belə hər bir sintetik mühakimə, elmi bilik təşkil etmir çünki elmi bilik, şərti deyil zəruri olmalıdır. Bununla belə, 'hava istidir' də sintetik mühakimədir lakin zəruri deyil şərti xarakter daşıyır. Çünki mən, yalnız hava konseptini analiz etməklə istilik fikrinə çata bilmərəm, ona görə də analitik deyil, sintetikdir və eyni zamanda zəruri deyildir çünki bir saat ərzində hava soyuq da ola bilər. Buna görə də o, elmi bilik sayılmır. Lakin "istilik genləşdirir" dediyimizdə bu mühakimə, şərti deyil zəruridir və elmi mühakimə xarakteri daşıyır. Bir sözlə, Kant üçün elmi bilik həm sintetik, həm də zəruri olmalıdır. Belə olan halda sual yaranır ki, bir mühakiməni zəruri edən nədir? Bu suala Kantın cavabı 'a priori'dir, başqa sözlə sintetik a priori mühakimələr bizə zəruri elmi biliklər verir. O, sintetik a priori mühakimələrin mümkünlüyünü belə izah edir: *"A priori sintetik mühakimə o zaman mümkün olur ki, biz aprior intuisiyanın formal şərtlərini, təxəyyül qabiliyyətinin sintezini və bu sintezin zəruri birliyini transsendental appersepsiyada, təcrübənin mümkün qavrayışına tətbiq edirik və deyirik: Ümumilikdə təcrübənin mümkünlüyünün şərtləri eyni zamanda təcrübə obyektlərinin mümkünlüyünün şərtləridir və bu səbəbdən a priori sintetik mühakimədə obyektiv əsaslıdır"* [Kant, 2015: A158].

Kantın, sintetik a priori mühakimələrin mümkünlüyü haqqında diskussiyası və istifadə etdiyi kopsetlərin istinadlarının izahı, başqa bir araşdırmanın mövzusudur və bizim üçün əsas məsələ, analitik və sintetik arasındakı ayrım olduğundan biz bu mövzunu derinləməsinə ələ

alabilməyəcəyik. Bununla belə, Hegel hissəsində bizə müqayisə və fərqləndirmə imkanı verəcəyi üçün Kantın arifmetika ilə bağlı fikirlərinə analitiklik və sintetiklik kontekstində toxunacağıq. Kanta görə riyazi mühakimələr sintetik a prioridir [Kant 2015: B15]. Kant, bu mühakimələri analitik hesab etməyin səhv bir fikir olduğunu bildirir. Bu məqamda o, “7+5=12” misalından istifadə edir və ‘nə 7 anlayışında nə 5 anlayışında nə də ikisinin sintezində 12 rəqəmini fikirləşirəm’ [Kant 2015: A164, B205] deyərək misalın sintetik olduğunu bildirir. Kant öz arqumentini daha əvvəl vurğuladığımız subyekt-predikat fərqi üzərində qurur və qısaca bildirir ki, nə “7” və “5” “12”də ehtiva edilir nə də “7 üstəgəl 5”in ‘’12’’yə bərabər olduğuna konseptual təhlillə çata bilərik. Bununla belə '7+5=12' mühakiməsində '7' və '5' toplamı konsepti, '12' konseptini ehtiva etmədiyi üçün toplama çatmaq sözgəlişi saymaq üçün barmaqların istifadə edilməsi kimi burada da intuisiya işin içinə girir. Beləliklə Kanta görə sadəcə analiz edərək toplama çatmadığımız, ehtiva edilməyən konseptlərlə elaqəsini intuisiya üstündən qurduğumuzdan bu mühakimələr sintetikdir. Üstəlik öz həqiqətini özündə daşıyır və təcrübəyə müraciət etmək məcburiyyətində deyilik bu sebeblə də a prioridir.

**2.Hegel Fəlsəfəsində Analitik və Sintetik Arasında Ayrım**

Hegelə görə analitik bilik, bilinən bir konseptlə başlayan və onu alt konseptlərə bölən düşüncə tərzini ifadə edir. Konseptlərin, alt konseptlərə və ya hissələrə bölünməsinə analiz deyilir. Analiz vasitəsilə analitik bilik, konseptlərin iç determinasiyalarını və əlaqələrini ortaya çıxardır. Bu ortaya çıxarma prosesində identiklik əsas prinsip kimi götürülür və ayrımlar istisna edilir. Analitik biliyin fərqləndirici xüsusiyyəti ilk növbədə, onun bilavasitə olması kimi görünür çünki analitik bilikdə heç bir başqalıq yoxdur. Hegel yazır: *“Bu bilik, Konseptin hələ ki başqalıq ehtiva etməyən bilavasitə əlaqəsidir, burada fəaliyyət öz mənfiliyini aradan qaldırır və elaqənin bilavasitəliyi yenə bu səbəblə özü vasitəçilikdir çünki Konseptin obyektlə mənfi münasibətdir amma bu münasibət özünü yox edir və beləliklə sadə və identik hala gətirir.”* [Hegel, G.W.F. (2014). Mantık Bilimi (Büyük Mantık. (Çeviren: Aziz Yardımlı). İstanbul: İdea Yayınevi. (p.600); İngilis dilində tərcümə üçün baxın: Hegel, G.W.F. (2010). The Science of Logic. (Trans. by George Di Giovanni). Cambridge: Cambridge University Press]. Analitik bilik bu identikliyi öz prinsipi kimi qəbul edir və bu mərhələdə başqası ilə əlaqə istisna edilir.

Analitik biliyə daha yaxından baxdıqda partikulyar, konkret bir obyektdən başladığını görürük bu da Hegelə görə həm tamamlanmış bir obyekt həm də problem olabilər. Analitik bilik, konseptlər üzərindən irəliləyəcəyi üçün onun analiz edəcəyi şey, konsept determinasiyalarıdır. Birincisi obyekti, onun içinə qoyulan konsept determinasiyalarından başqa bir şey yoxmuş kimi təsəvvür

edilə bilər. İkinci olaraq əldə edilən determinasiyaların, obyektdən kənara çıxarılmış olduqları düşünülə bilər. Bunların hər ikisi, Hegelə görə birtərəfli baxışlardır, birincisi subyektiv idealizmi əks etdirir (burada bilmək fəaliyyəti kənarda *'özlüyündə şey'*in (*ding an sich*) gizli qaldığı bir yerləşdirmə aktıdır), ikincisi isə realizmi əks etdirir (subyektiv konsepti, düşüncə determinasiyalarını öz içinə, xaricdən qəbul edən boş bir identiklik olarak göstərir). Subyektiv idealizm nöqteyi-nəzərindən, analizdən alınan məntiqi elementlər, subyektiv fəaliyyətin məhsulu olaraq subyektin ora yerləşdirdiyi şey olaraq meydana çıxır. Realizm nöqteyi-nəzərindənsə məntiqi elementlər, onsuzda orada mövcud olan, obyektdə tamamlanan, ondan çıxarılan bir şey kimi görünür [Hegel 2014: 600]. Təsvir edilən iki baxış, Hegel baxımından iki monent kimi qəbul edilir və o deyir ki, onlar arasında kəskin ayrım qoymamaq səhvdir çünki analiz nəticəsində ortaya çıxan şeyin abstraksiya olması yəni subyektiv olaraq bilikdə olması ilə yanaşı məntiqi determinasiyalar da subyektiv tətbiq deyildir [Hegel 2014: 601]. Analizin nəticəsi nə olursa olsun analitik metod, immanent bir proqres daşıyırmış kimi görünür. Halbuki Hegelə görə, düşüncə determinasiyaları, özlüyündə bir keçişi də işarət etməkdədir. Analiz edilən obyekt bütövlükdə müəyyən edildikdə, bütündən parçalarına tərəf gedilir, kauzdan efekt determinasiyasına tərəf gedilir: "Ancaq burada bu, bütün və parçanın, kauz və efektin əlaqəli olduğu səviyyəyə irəliləyiş deyildir və üstəlik bu formal bilik üçün bu elaqələr elə hazır əlaqələrdir ki, bir determinasiya digərinə mahiyyətcə bağlanmış olaraq tapılır. Kauz və ya parça kimi müəyyən olunan obyekt beləliklə bütün əlaqə vasitəsilə, indidən onun iki tərəfi vasitəsilə müəyyən edilir" [Hegel 2014: 601].

Əlaqə özlüyündə sintetik olsa da, buradakı bağlantı analitik bilik üçün verilən bir şey olmaqdadır. İndi Hegel deyir ki, bu bağlantının a priori və ya a posteriori olması mövzu üçün əhəmiyyətsizdir çünki bağlantı ya hazır tapılan ya da şüur faktı kimi qavranılır. Sintetik bilik isə bilinməyəndən başlayan və fərqli konseptlər arasındakı əlaqələrlə bir bilik meydana çıxaran düşüncə tərzini ifadə edir. Bu əlaqədəki konseptlərin birləşməsinə sintez deyilir. Necə ki, analitik bilik identiklik qanununa əsaslanır yəni oxşarlıqları təməlinə qoyursa sintetik bilik də əksinə ayrımları təməlinə alır və konseptlər arasındakı ayrımlar vasitəsilə əlaqələrə diqqət yetirir. Hegel bildirir ki, sintetik biliyin məzmunu, konsept determinasiyalarıdır. Sintetik bilik, obyektiv dünyanı, sintez prosesində konseptlərə çevirir və Hegel üçün sintetik bilik üç momentdən ibarətdir: definisiya, bölümləmə və teorem. Bunlar sintetik bilik prosesini təsvir edir və definisyasına görə ilk növbədə obyekt, konseptə endirilir və universallıq kimi qavranılır. Bölümləmə momenti, universal konseptin parçalara və ya kateqoriyalara bölünməsi mərhələsidir və partikulyar olanı qavramaq üçün universaldan başlamaq

lazımdır. Teorem momenti isə partikulyarlıqdan sinqulyara keçidi təmin edir və determinasiyaları, konseptin daxili identikliyinə əsaslanır. Teoremin definisiyadan və bölümləmədən əsas fərqi ondan ibarətdir ki, onun xaricdən bir-birinə bağlı əlaqələri yoxdur. Hegelin fəlsəfi arqumenti üçün əhəmiyyətini inkar etmədən, məqaləmizə bilavasitə töhfə verməyəcəyini düşündüyümüz üçün qeyd olunan üç sintetik bilik momentini daha ətraflı izah etməyəcəyik.

Birinci böümdə biz bildirdik ki, Kant, arifmetikanı sintetik a priori görür, lakin Hegel üçün arifmetika, ən yüksək immanentlik dərəcəsində analitikdir [Hegel 2014: 602]. Hegel üçün arifmetika analitik identiklik prinsipinə əsaslanan analitik bir elmdir. Analitik elmin materialı, abstrakt, qeyri-müəyyən bir şey kimi görünür, ondan ayrımlar və elaqələr xaric edilir. Analitik elm, əlaqələrin deterinasiyasını fərz edir və bundan sonra bu əlaqələr üzərindəki əməliyyatlar da analitik xarakter daşıyır. Başqa sözlə rəqəmlər, bilən subyekt tərəfindən qoyulur və sonrakı əməliyyatlar analitik olur. Analitik teorem, problemi öz daxilində həll olunmuş olaraq ehtiva edir və onun bərabərləşdirdiyi tərəflər əhəmiyyətsiz identiklik vəziyyətindədir. Hegel bunu, Kantın öz nümunəsi ilə izah edir. '7+5=12' mühakiməsində çoxluq bir tərəfdə '5+7' olaraq, digər tərəfdən isə birlik '12' olaraq verilmişdir və birlik ilə çoxluq arasındakı fərq əhəmiyyətsizdir. Bunun səbəbi '5+7' və '12'nin eyni məzmunda olmasıdır. Bununla belə '5+7', əslində '5' və '7'nin birləşdirilməsi tələbidir. Odur ki, "12", "5" və "7" öz mahiyyətinə görə əvvəlcədən planlaşdırılmış bir prosesin nəticəsidir ki, bu da tamamilə zahiri və düşünülməmiş bir hərəkətdir ve bunu hər hansı bir mexanizma da edə bilər [Hegel 2014: 603]. Ona görə də burada, sintetik bilikdə olduğu kimi başqasına keçişin izi yoxdur. İndi '5+7=12' prepozisiyasının sübutu, '5' rəqəmindən sonra '7' vahid saymaq və onları '12' ilə tutuşdurmaqdan başqa bir şey deyil ki, bu da özü müəyyən edilmiş hesablamadır. Burada, '5' rəqəm olsa da, eyni zamanda sayma prosesinə/aktına (1,2,3,4,5...) istinad edir ki, '5'də saymağı dayandırmaq ixtiyaridir, lakin özlüyündə irəliləyən proses olaraq analitikdir. Buna görə də sübut, müəyyən '5' və '7' ədədlərinin toplanması olaraq verildiyi üçün həll yolu da sadəcə onları toplamaqdır. Problem toplamaq olaraq qoyulduğuna görə həll yolu da toplamadır ona görə də sübut, problemdə verilmiş əməliyyatın yerinə yetirildiyi tavtologiyasını ifadə etdiyi üçün həllin doğru olduğunu göstərir [Hegel 2014: 603].

## 3.Analitik və Sintetik Biliyin Birliyi Olaraq Dialektika

Hegel, mütləq ideya hissəsində dialektik mühakimə və biliyi, analitik və sintetik mühakimələrin birliyi olaraq təqdim edir. Mütləq ideya, teorik və praktik ideyanın birliyi kimi qəbul edilir və fəlsəfənin məzmununu təşkil edir. Mütləqi qavramaq sadəcə analitik və sintetikin birliyi olaraq dialektika vasitəsilə mümkündür. Ona görə də fəlsəfənin metodu həm də konseptin özünün hərəkəti olan dialektika olmalıdır. Fikrimizcə, dialektik mühakimə və

Hegelin definisyalarını başa düşməyin ən yaxşı yolu, məntiq kateqoriyalarının əlaqəsinə baxmaqdır. Bu məqalənin kontekstində Hegel məntiqinin bütün kateqoriyalarının əlaqələrini konkretləşdirmək mümkün deyil amma əslində izah etmək istədiyimizi izah etmək üçün bütün kateqoriyaları izah etməyə ehtiyac da yoxdur. Hegelin məntiq elmi; Üç əsas başlığa bölünür: *Varlıq* (***Sein***), *Essensiya* (***Wesen***) və *Konsept* (***Begriff***) və bu başlıqlar da öz daxilində bölünür. Varlıq bölməsi üç hissəyə bölünür: *Keyfiyyət* (***Qualitat***), *Kəmiyyət* (***Quantitat***) və *Ölçü* (***Maas***). Keyfiyyət başlığı da üçə bölünür: *Varlıq* (***Sein***), *Müəyyən Varlıq* (***Dasein***) və *Özü üçün Varlıq* (***Das Fursichsein***). Biz də üç hissəyə bölünən Keyfiyyət hissəsinin varlıq başlığının xülasəsini verəcəyik: *Varlıq* (***Sein***), *Yoxluq* (***Nichts***) və *Oluş*. [*Werden* konsepti, əmələ gəlmə halına, təşəkkül tapma vəziyyətinə istinad etdiyi üçün biz də Türk dilində də istifadə olunan və ış(4) şekilçisinin, fel kökünə getirilməsi ilə yaranan oluş sözünü istifadə edəcəyik. İngilis dilində isə becoming olaraq tərcümə edilir].

Bir daha təkrar edək ki, bu xülasənin səbəbi dialektik bilik və dialektik mühakimənin nə olduğunu və onların, Hegel tərəfindən analitik və sintetikin birliyi olaraq nə üçün göstərildiyini izah etməyə çalışmaqdır.

Hegel üçün varlığın, keyfiyyətlə başlamasının səbəbi keyfiyyətin varlıqla identik determinasiya olmağıdır yəni bir şey öz keyfiyyətini itirər isə o, olduğu kimi olmaqdan çıxır. [Hegel, 2004. p.161]. Keyfiyyətin də varlıq ilə başlamasının səbəbi başlanğıcın, bilavasitə bir şey olmalı olduğudur. Bu məqamda varlıq, sadə və qeyri-müəyyən bir şey olaraq saf düşüncəyə istinad edir [Hegel 2004: 161]. Düşüncənin başlanğıcı, indeterminasiyası içindəki saf düşüncədir. Qeyri-müəyyəndir çünkü müəyyən olmuş olsaydı başqası olan bir özü olmayana bağlı olardı halbuki başlanğıcda, başqası ola bilməz. Başqası olmayan demək, bilavasitə olan deməkdir, başlanğıcda hər şeydən əvvəl olan qeyri-müəyyən varlıq olmaqdadır. Beləliklə başlanğıc, Varlıq ilə edilir [Hegel 2004: 162].

Hegelin bu hissədə bəhs etdiyi varlıq, əslində dialektik prosesin başlanğıcı olaraq saf varlıqdır. Saf varlığın əsası, onun qeyri-müəyyən olmağıdır. Ona görə də o, saf indeterminasiya və boşluqdur [Hegel 2014: 60], saf abstraksiyadır [Hegel 2004: 163]. Amma saf indeterminasiya və boşluq, yoxluq dedikdə tam olaraq nəzərdə tutduğumuz şeydir. Varlıq, qeyri-müəyyən olduğundan əslində varlıq deyil, yoxluqdur [Hegel 2014: 73]. Beləliklə Hegel, yoxluq kateqoriyasına keçir. Hegelin əvvəlki kateqoriyadan keçidindən başa düşəcəyimiz kimi yoxluq, varlıqla eyni definisiyaya malikdir: qeyri-müəyyəndir, məzmunsuzdur və boşluqdur [Hegel 2014: 60]. Yoxluq, bizim düşüncəmizdə mövcuddur və ya düşüncənin özüdür. Beləliklə yoxluq, varlıq ilə eyni determinasiyanı/indeterminasiyanı bölüşdüyü üçün varlıq və yoxluq eynidir. Burada diqqət edilməli məqam, yoxluğun müəyyən

yoxluq kimi deyil, qeyri-müəyyən bir yoxluq kimi qəbul edildiyidir. Hegelə görə yoxluq, bir şey ilə ziddlik içində ələ alındığında bir şeyin yoxluğudur yəni müəyyən yoxluqdur və bu məqamda, varlıq ilə vasitəçilik artık aydındır. Bu səbəblə də burada ələ alınan yoxluq, abstrakt və bilavsitə inkar olaraq özü üçün yoxluqdur [Hegel 2014: 61]. Diqqət yetirilməsi lazım olan başqa bir şey, Hegelin vurğuladığı "varlıq və yoxluq eynidir" prepozisiyasının əksikliyidir. Hegel dialektikası bütün zidd və müxtəlif deteminasiyaları ontologiya kontekstində təcrid olunmuş abstraksiyalar kimi görmür. Hegel məntiqində "varlıq və yoxluq eynidir" prepozisiyasının nəticəsi Oluşdur. Amma bu prepozisiyasının problemi ondadır ki o, nəticəni özündə ehtiva edir, lakin nəticənin özü, prepozisiyada ifadə olunmur [Hegel 2014: 67]. Hegel müəyyən edir ki, bunun səbəbi mühakimə formasında olan prepozisiyanın spekulyativ doğruluqları ifadə etmək üçün uyğun olmamasıdır. Bu məqam, bizim ortaya qoymaq istədiyimiz analitik və sintetik arasındakı ayrım üçün çox vacibdir çünki dialektika və dialektik mühakiməni izah etməkdə yaranan çətinlik, bu formal uyğunsuzluqdan irəli gəlir. Bu səbəbdən Hegel, öz fəlsəfəsində sillogizmi, mühakimədən qat-qat vacib görür. Bir mühakimə, subyekt ve pedikat arasında bir identiklik bağlantısı yaradır və subyektin predikatdan xaric determinasiyalarını asbstraksiya edir, bununla birlikdə predikatın da subyektdən daha geniş oldduğunu abstraksiya edir. Lakin deyir Hegel, əgər məzmun spekulyativdirsə, subyekt və predikatın qeyri-identikliyi də əsas momentdir və bu mühakimədə ifadə olunmur [Hegel 2014: 67]. Bəs mühakimə sistemindəki bu çatışmazlıq necə aradan qaldırıla bilər? Hegelə görə bunun cavabı, prepozisiyanın ziddini ifadə etməli olduğudur yəni 'varlıq və yoxluq eynidir' prepozisiyasına, ziddi olan 'varlıq və yoxluq eyni deyildir' prepozisiyası əlavə edilir. Lakin Hegel deyir ki, bu məqamda da bir çatışmazlıq var, çünki bu halda spekulyativ məzmunun yalnız bir tərəfini götürüb onu, zidd tərəflərdən birinə ixtisar etmək təhlükəsi var. Halbuki Hegel, varlıq və yoxluğun, saf varlıq və yoxluq olduğunu vurğulamaqdadır ayrım isə müəyyən varlıq sahəsində olandır. Saf varlıq və yoxluq arasındakı fərqi ayırmaq üçün lazım olan isə hərəkətə işarə edən üçüncü bir element olaraq oluşdur. Varlıqdan və yoxluqdan danışarkən, oluşdan danışmaq zəruridir çünki onların hər ikisi özlüyündə daimi deyil onlar, yalnız oluşda bir daimiliyə malikdir [Hegel 2014: 69].

Varlığın və yoxluğun eyniliyi bizi başqa bir kateqoriyaya, oluş kateqoriyasına aparır. Çünki Hegel məntiqində doğruluq nə varlıqdır nə də yoxluqdur doğruluq, varlığın yoxluğa və yoxluğun da varlığa keçididir. Odur ki oluş, əslində bir hərəkətdir içində varlıq və yoxluq ayırd edilir amma eyni hərəkətin momentləri olduqları üçün hər biri, bir digərində yox olur, bir digərində ortaya çıxır [Hegel 2014: 61]. Ortaya çıxmaq ve yox olmaq oluşun

momentləridir. Hegelin dediyi kimi, oluşda həm varlıq var, həm də yoxluq var çünki bu iki moment oluşu təşkil edir lakin eyni şəkildə varlıq və yoxluq öz başqasından ayrı olmadığı üçün əslində yoxdur [Hegel 2014: 78]. Beləliklə Hegelə görə oluş, varlığın və yoxluğun iki birliyi olaraq, varlığı və yoxluğu ehtiva edir. Bu da əslində ikisi eyni şey olan cüt determinasiyadır ki, birincidə yoxluq bilavasitə var olmaqda ikincidə isə varlıq bilavasitə var olmaqdadır. Birinci determinasiya yoxluqdan başlayıb varlığa, ikinci determinasiya isə varlıqdan başlayıb yoxluğa keçir [Hegel 2014: 79].

Oluşun momentləri olan yox olmaq, varlığın yoxluğa keçməsi və ortaya çıxmaq, yoxluğun varlığa keçməsidir. Beləliklə həm varlıq həm də yoxluq, özlüyündə öz ziddini daşıyır [Hegel 2014: 79]. Momentlər bu səbəblə də yoxa çıxan momentlərdir və onların yoxa çıxmağı oluşun yoxa çıxmağı mənasına gəlir çünkü oluş, bu iki momentin ayrımı üzərində qurulur. Bunun nəticəsi Hegel üçün oluşun, öz içində özü ilə ziddiyyət təşkil etməsidir. Çünki onun, öz daxilində birləşdirdiyi determinasiyalar zidd determinasiyalardır [Hegel 2014: 79]. Bu birlik özünü aradan qaldırır (*aufheben*), lakin nə yoxluğa, nə də varlığa qayıdıb bunu edir, çünki artıq qeyd etmişik ki, varlıq yoxluqla, yoxluq da varlıq vasitəsilə düşünülür və bunlar bir-birinə keçidlərdir. Üstəlik Hegel üçün aradan qaldırma ilə yoxluq arasındakı əsas fərq vasitəçilikdir. Yoxluq definisiyasına görə bilavasitə olandır lakin özünü aradan qaldıran vasitəlidir, çünki o, bir var olmayandır [Hegel 2014: 80]. Hegelin məntiqinə görə varlığın aradan qalxması və ya yox olması, müəyyən varlığa (***Dasein/Determinate Being***) keçiddir.

Xülasə etdiyimiz varlıq bölümü bizə, dialektik metod və mühakimənin bir nümunəsini təqdim edir. Təsvir etdiyimiz bölümün gedişatı ilk növbədə analitik olaraq görüləbilər çünkü varlıq konseptinin bir analizi olduğu və konseptin parçalara bölündüyü fikirləşilə bilər. Lakin Hegelə görə, bu mühakimə həm sintetik həm də analitikdir çünki o, bir tərəfdən bütünlüklə konseptin daxilində qalır digər tərəfdən isə konsept vasitəsiylə dialektik olaraq və bir başqası olaraq müəyyən edilir: "Mütləq bilmə metodu bu səviyyəyə qədər analitikdir. Konseptin mütləq obyektivliyi ondan ibarətdir ki, ilkin universal özünün sonrakı determinasiyasını tamamilə və yalnız onda tapır, bunun əminliyi isə Metoddur. Amma o qədər də sintetikdir çünkü bilavasitə sadə bir universal olaraq müəyyən edilmiş olan obyekti, bilavasitəliyin və universallığın özündə daşıdığı determinasiya yolu ilə özünü, bir başqası olaraq göstərir. Obyektin öz-özlüyündə olan müxtəlifliyin bu bağlantısı sonlu bilik vəziyyətində sintez dedikdə artıq nəzərdə tutulan şey deyildir. Obyektin eyni dərəcədə ümumi analitik determinasiyası vasitəsilə bu bağlantının Konsepsiyada olan bağlantı olması vasitəsi ilə bu bağlantı, özünü sintetik bağlantıdan tamamilə ayırır" [Hegel 2014: 638].

Beləliklə Hegel, universalın özünü, öz başqası olaraq müəyyən etməyə imkan verən və həm analitik həm də sintetik olan bu mühakimə momentini dialektik moment olaraq adlandırır. Bu nəticə ilə aşağıdakı sualı vermək olar: Hegel analitik və sintetik arasındakı ayrımı qoruyur yoxsa dialektika ilə birlikdə aradan qaldırılmış momentlər olaraq ayrım yox olur? Andy Wernerə görə Hegel, bu ayrımı qoruyur və nəticədə ortaya çıxan ayrım diskursiv bilmə və spekulyativ bilməyi ifadə edir. [Werner, 2018, 502-524]. Werner deyir ki, həm Kantın həm də Hegelin analitik və sintetik arasındakı ayrımını diskursiv bilmə konsepsiyası vasitəsilə əsaslandırmaq olar. Wernerə görə diskursiv bilmə, üç xüsusiyyətə malikdir. Bunlardan birincisi, öz-determinasiya (*self-determination*) aktıdır. Öz-determinasiya aktı, diskursiv blimənin özünü davam etdirən bir akt olmağı səbəbiylə fərz edilir. Bunun mənası ağlın, biliyi formalaşdırdığı, konseptləri istifadə etdiyi qısaca aktiv olduğudur. İkinci xüsusiyyət, biliyin genişlənməsidir ki bu da biliysizlik halından biliyə doğru genişlənməyə istinad edir. Üçüncü xüsusiyyət, ümumi təsvirlərdən (konseptlərdən) bilikdir ki, bu da bizə müxtəlif təsvirlərin çoxluğunu konseptlərin altında formalaşdırmağa imkan verir [Werner, 2018: 507]. Werner, qeyd etdiyimiz diskursiv bilmənin definisiyasına əsaslanaraq deyir ki, analitik və sintetik arasındakı ayrım konseptlərin məntiqi əlaqələrini əks etdirmək üçün təşkil edilmiş cins/növ ağacı vasitəsilə izah edilə bilər. Bu səbəbdən Werner, Hegeldə analitiklə sintetik arasındakı ayrımı Porfirios ağacı konsepsiyası vasitəsilə izah edir.

Wernerə görə, cins/növ ağacına əsaslanan analitik və sintetik arasındakı ayrım həm Kant həm də Hegel tərəfindən qəbul edilir və bilmənin diskursiv xarakteri ilə izah olunur. Wernerin fikrincə, analitik mühakimələr, Hegelə görə, ağacın sistematik strukturunu təşkil etmir, strukturu yalnız sintetik mühakimələr təşkil edir. Wernerin arqumenti ondan ibarətdir ki, analitik mühakimələr cins-növ ayrımına uyğun deyil çünki onlar, konseptlər və onların parçaları ilə əlaqəni ifadə edir. Sintetik mühakimələr bizə cins və növ əlaqəsini verir və beləliklə ağacı təşkil etməyə imkan verir. Wernerin fikrincə, Hegelin Porfirios ağacının strukturu üçün istifadə etdiyi konsepsiya, sintetik bilik momenti olan “bölümləmə” konsepsiyasıdır. Wernerə görə Hegel, bölümləməyi bilmədəki sistemliliklə əlaqələndirir çünkü burada insan, sadəcə obyektləri dəyişdirmədən bir konseptdən digərinə keçə bilər. Yəni ağac, insana eyni obyekt haqqında müxtəlif konseptləri (məsələn, biologiya) əlaqələndirməyə və onları nizamlı bir bütövlükdə birləşdirməyə imkan verir [Werner, 2018: 516]. Beləliklə Wernerin analitik və sintetik ayrımı, cins-növ bölgüsü vasitəsilə aşağıdakı kimi müəyyən edilir: Bir cinsin ayrımını prediktə edən və biliklərimizi genişləndirən mühakimələr sintetikdir; Bəzi növlərin fərqiliyi və ya cinsini ifadə edən mühakimələr analitikdir. Bununla belə, sistematik əlaqə sintetik olmalıdır, çünki eyni cinsin fəqli növləri arasında

xaric edilmə əlaqəsi tələb olunur və bunu yalnız sintetik mühakimələr təmin edə bilər. Qısacası, növdən cinsə qayıtdığımız mühakimələr analitik, cinsdən növə keçdiyimiz mühakimələr isə sintetikdir. Werner, bu mülahizələrin nəticəsi olaraq Hegelin də Kant kimi analitik və sintetik arasındakı ayrımı qəbul etdiyini və bunun diskursiv bilmə konsepsiyasına əsaslandığını iddia edir. Daha sonra Werner, Kantla Hegel arasındakı ayrımı müəyyən edir ki, bu da Wernerin fikrincə, spekulyativ bilmədir [Werner, 2018: 521]. Hər iki filozof da mütləq haqqında biliyin, diskursiv bilmə vasitəsilə əldə edilə bilməyəcəyini desə də, Hegel üçün mütləq olan spekulyativ bilmə vasitəsilə qavranılabilənə çevrilir və bu da refleksiv bir fəaliyyətdir. Bu fəaliyyət, bir tərəfdən öz üzərində bir düşünmə olmağı baxımından analitikdir, digər tərəfdən, özünü başqası kimi göstərmək baxımından sintetikdir [Werner, 2018: 523].

Wernerin arqumentlərini diqqətə alsaq Hegelin, analitik və sintetik ayrımını davam etdirdiyini ifadə edə bilərik. Amma əlavə etmək lazımdır ki, bu ayrım bilik üçün dialektika momenti olaraq özünü göstərir. Analitik mühakimənin bilik xüsusiyyətinə malik olması üçün sintetik mühakimədən istifadə edilməlidir. Sintetik mühakimə üçün isə analitik mühakimə əvvəlcədən qəbul ya da fərz edilir. Başqa sözlə desək, bir problemin həlli aktında, ilk növbədə sözügedən obyekti kiçik parçalara bölmək və onların tək tək determinasiyalarını çıxarmaq, qısacası onları analiz etmək, problemin qavranılmasının ilk şərti olaraq ortaya çıxır. Bu mərhələdən sonra problemin həllini tapmaq üçün qavranılan parçaları digər parçalarla birləşdirərək, yəni sintez yolu ilə sintetik bilmə ortaya çıxır. Buna görə də, Hegel fəlsəfəsində analitik və sintetik arasında ayrım özünü göstərsə də, bu, Kant fəlsəfəsindəki ayrıma qətiyyən oxşamır. Bu səbəbdən də fikrimizcə, Hegelin fəlsəfini diskursiv bilik üzərindən Kanta oxşar olaraq dəyərləndirmək mübahisəli bir məsələdir. Fikrimizcə, Hegel üçün hər bir sintetik mühakimə örtülü şəkildə analitik mühakimələri ehtiva edir. ‘A’, ‘B’dir dedikdə, əgər bu mühakimə analitikdirsə, “B” predikatının “A” konseptində ehtiva edildiyi ifadə etməlidir, sintetikdirsə ehtiva edilmədiyi ifadə etməlidir. İndi təsəvvür edək ki, bu mühakimə sintetikdir. Bu halda, əgər mühakimə sintetikdirsə biz örtülü olaraq bu nəticəyə (sintetik olduğu nəticəsinə) yenə ‘A’ konseptinin analizi vasitəsi ilə çatmalıyıq çünkü ‘B’ predikatının ‘A’ konseptində ehtiva edilib edilmədiyini bilmək ancaq və ancaq ‘A’ konseptinin məzmunu bilinirsə mümkündür. Biz həmçinin cins-növ ayrımının sadəcə sintetik mühakimə vasitəsilə genişləndiyi arqumentinə də cavab vermiş oluruq. Hegel fəlsəfəsində sintetik bilik definisiya, bölümləmə və teorem momentlərindən ibarət idi və həqiqətən də cins-növ ayrımı bu momentə uyğun gəlirdi, lakin qeyd etdiyimiz kimi bu, yalnız analitik mühakimələr üzərinə yüksələrək əldə edilə bilən bir moment olaraq qarşımızdaydı. Bu səbəbdən, Wernerin qeyd

etdiyi kimi, Hegel üçün dialektik mühakimə, bu iki momenti ehtiva edir. Odur ki, Wernerin diskursiv və spekulyativ arasında qoyduğu ayrım, Hegel fəlsəfəsi baxımından sadəcə bir prosesin momenti olaraq ifadə oluna bilər ki, bu da Wernerin ortaya qoyduğu kateqorik ayrım ilə ziddiyyət təşkil edmiş kimi görünür. Sonda Werner deyir ki, “Hegelin ‘hər şeyin dialektik olduğunu’ düşündüyünü və ya hətta diskursiv bilmədə də spekulasiya tapa biləcəyimizi inkar etmək istəmirəm... Amma əvvəlcə dialektikanı, spekulyativ bilməyi və s. saf halında qavramağa çalışmalıyıq’’ [Werner, 2018: 528]. Lakin Hegel fəlsəfəsi baxımından bütün Məntiq, spekulyativ doğruluqlar vasitəsilə irəlilədiyi üçün Wernerin etməyə çalışdığı təcrid olunmuş ayrımın istinadı da müəmmalı hala gəlir. Bu səbəbdən, diskursiv bilik dialektik metod ilə Hegel fəlsəfəsi baxımından dəyərlərdiriləcəyi üçün ayrım özünü, aradan qaldırılmalı olan bir moment kimi təqdim edir. Eynilə, Kantın analitik və sintetik arasındakı ayrımı da Hegel üçün sadəcə dialektik mühakimə momenti olaraq mənalı bir hal alır.

**4.Nəticə**

Bu məqalənin məqsədi Hegel fəlsəfəsində analitik və sintetik arasındakı ayrımın icmalını vermək idi. Bu məqsədlə biz əvvəlcə Hegeli və ümumilikdə o dövrü təsiri altına almış olan Kant fəlsəfəsində analitik və sintetik ayrımının necə ələ alındığını göstərdik. Məlum oldu ki, Kant fəlsəfəsində bu ayrım mühakimələrlə həyata keçirilir. Sonra Hegel fəlsəfəsində analitik və sintetik arasındakı ayrımın necə ortaya qoyulduğunu izah etdik. Nəhayət, Hegelin analitik və sintetik konseptləri vasitəsilə dialektikanı formalaşdırdığının icmalı verildi. Hegelin, analitik ilə sintetik arasındakı ayrımı, sadəcə dialektik mühakimə momentləri olaraq saxladığı, dialektik mühakimənin analitik və sintetik mühakimələrin birliyini ifadə etdiyi, analitik və sintetik ayrımının isə sadəcə dialektik mühakimə momentləri olaraq məna kəsb etdiyi göstərildi.

## ƏDƏBİYYAT

**1.** Hegel, G. W. F. (2004). *Felsefi Bilimler Ansiklopedisi I. Mantık Bilimi.* (Trans. by Yardımlı, A.). İstanbul: İdea Yayınevi.

**2.** Hegel, G. W. F. (2010). *The Science of Logic.* (Trans. by Di Giovanni, G.). Cambridge: Cambridge University Press.

**3.** Hegel, G. W. F. (1991). *The Encyclopaedia Logic: Part I of the Encyclopaedia of Philosophical Sciences with the Zusatze.* (Trans. by Geraets, T.F., Suchting, W.A. & Harris, H.S.). Indianapolis: Hackett Publishing.

**4.** Hegel, G. W. F. (2014). *Mantık Bilimi (Büyük Mantık).* (Trans. by Yardımlı, A.). İstanbul: İdea Yayınevi.

**5.** Kant, I. (1998). *Critique of Pure Reason.* (Trans. by Guyer, P. & Wood, A.N.). Cambridge: Cambridge University Press.

**6.** Kant, I. (2015). *Arı Usun Eleştirisi.* (Trans. by Yardımlı, A.). İstanbul: İdea Yayınevi.

**7.** Werner, A. (2018). Hegel on Kant's Analytic-Synthetic Distinction. *European Journal of Philosophy, 26*(1), 502-524.

## Различие аналитического и синтетического в философии Георга Фридриха Гегеля

**Эльнур Юсифзаде***

**Абстракт.** Основной целью статьи является краткое изложение различия аналитического и синтетического в философии Гегеля, а также выяснение выводов являлся ли этот философ продолжителем Канта. Во «Введении» отмечена разница аналитического и синтетического в философии Гегеля, анализированы влияние Канта на Гегеля и свой период, представлены выводы обеих ученых о данных вопросах. В статье основываясь на мировоззрения Канта и Гегеля, раскрыты концептуальная пара в философии Гегеля, т.е. их отношение к аналитическому и синтетическому концептам. В статье определены основные философские выводы Гегеля, о возможности решения вопроса различия аналитического и синтетического путем диалектических рассуждений.

**Ключевые слова:** Гегель, Кант, аналитический, синтетический, субъект, объект, предикат, диалектика

## The Difference Between Analytical and Synthetic in the Philosophy of Georg Friedrich Hegel

**Elnur Yusifzada***

---

* Стамбульский Университет, Институт Социальных Наук, факультет Философии, Ph.D; Стамбул, Турция
E-mail: elnur.yusifzade@gmail.com
https://orcid.org/0000-0003-1187-3416
**Цитировать статью:** Юсифзаде, Э. [2024]. Различие аналитического и синтетического в философии Георга Фридриха Гегеля. *Журнал «Metafizika», 7(1),* с.77-90.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.77-90

**История статьи:**
*Статья поступила в редакцию: 15.11.2023*
*Отправлена на доработку: 11.12.2023*
*Принята для печати: 29.01.2023*

* Istanbul University, Institute of Social Sciences, Department of Philosophy, PhD (qualification period). Istanbul, Republic of Türkiye
E-mail: elnur.yusifzade@gmail.com
https://orcid.org/0000-0003-1187-3416
**To cite this article:** Yusifzada, E. [2024] The Difference Between Analytical and Synthetic in the Philosophy of Georg Friedrich Hegel. *"Metafizika" jurnalı,* 7(1), səh.77-90.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.77-90

**Abstract.** The main goal of the article is to briefly review the difference between analytical and synthetic in Hegel's philosophy, as well as to determine whether this philosopher was a follower of Kant's philosophy or not.

First, in the "Introduction" section, the difference between analytical and synthetic in Kant's philosophy is shown; moreover, Kant's influence on Hegel and, generally, on the period in question and the conclusions of both scientists on this issue are analyzed.

In the article, the main features of Hegel's and Kant's worldviews and some conclusions related to the pair of concepts in Hegel's philosophy, i.e., analytical and synthetic concepts, are examined.

In the conclusion of the article, Hegel's main philosophical views are identified, and the possibility of resolving the difference between analytical and synthetic through dialectical judgment is put forward.

**Keywords:** Hegel, Kant, analytic, synthetic, subject, object, predicate, dialectic

## Hegel Felsefesinde Analitik ve Sentetik Ayrımı Üzerine Tartışma

**Elnur Yusifzada***

**Özet.** Çalışmanın amacı, Hegel felsefesinde analitik ve sentetik ayrımının bir özetini sunmak ve bu konuda Hegel’in Kant’ın ayrımını devam ettirip ettirmediği yönündeki argümanları incelemektir. Bu amaç doğrultusunda ilk olarak giriş bölümünde Kant felsefesinde analitik ve sentetik ayrımının nereye denk düştüğü gösterilecektir. Bunun nedeni Kant’ın hem Hegel’in ayrımına hem de döneme etkisi olmasıyla birlikte ele alacağımız argümanların da Hegel’i, Kant karşılaştırmasıyla incelemesidir. Bununla birlikte Kant özeti bize aynı zamanda makale için gerekli olan ön bilgilendirmeyi sağlayacaktır. Daha sonra Hegel felsefesinde bahsedilen kavram çiftinin nasıl alımlandığı aktarılacaktır. Hegel’in, Kant’ın ayrımını devam ettirip ettirmediği sorusu sorulacak ve ayrımı bir noktada devam ettirdiği yönündeki argümanlar aktartarılacak. Son olarak Hegel’in analitik ve

---

**Article history:**
*Received: 15.11.2023*
*Accepted: 29.01.2024*

* İstanbul Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Felsefe bölümü, Doktora (yeterlilik dönemi). İstanbul, Türkiye Cumhuriyeti
E-mail: elnur.yusifzade@gmail.com
https://orcid.org/0000-0003-1187-3416

**Makaleye referans:** Yusifzadə, E. [2024] Hegel Felsefesinde Analitik ve Sentetik Ayrımı Üzerine Tartışma. *“Metafizika” jurnalı,* 7(1), səh.77-90.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.77-90

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.11.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 11.12.2023*
*Çapa qəbul edilmişdir: 29.01.2024*

sentetik ayrımını sadece diyalektik yargının momentleri olarak ele aldığı ve analitik-sentetik ayrımının ancak diyalektik yargının momentleri olarak anlamlı olduğu öne sürülecektir.

**Anahtar Kelimeler:** Hegel, Kant, analitik, sentetik, özne, nesne, yüklem, diyalektik

## REFERENCES

**1.** Hegel, G. W. F. (2004). *Encyclopedia of Philosophical Sciences I. The Science of Logic.* (Trans. by Yardimli, A.). Istanbul: Idea Publishing House. ISBN:9789753970396 (in Turkish)

**2.** Di Giovanni, George (ed.) (2010). *Georg Wilhelm Friedrich Hegel: The Science of Logic.* Cambridge University Press. (in English)

**3.** Hegel, G. W. F. (1991). *The Encyclopaedia Logic: Part I of the Encyclopaedia of Philosophical Sciences with the Zusatze.* (Trans. by Geraets, T.F., Suchting, W.A. & Harris, H.S.). Indianapolis: Hackett Publishing. (in English)

**4.** Hegel, G. W. F. (2014). *Science of Logic (Great Logic).* (Trans. by Yardımlı, A.). Istanbul: Idea Publishing House. (in Turkish)

**5.** Kant, I. (1998). *Critique of Pure Reason.* (Trans. by Guyer, P. & Wood, A.N.). Cambridge: Cambridge University Press. (in English)

**6.** Kant, I. (2015). *Critique of Pure Reason.* (Trans. by Yardımlı, A.). Istanbul: Idea Publishing House. (in Turkish)

**7.** Werner, A. (2018). Hegel on Kant's Analytic-Synthetic Distinction. *European Journal of Philosophy, 26*(1), 502-524. (in English)